**“Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı 2022-ci il üzrə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Tədbirlər planı”nın icrası barədə**

**H E S A B A T**

**1-ci bəndin icrasına dair (Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planının hazırlanması, həmin tədbirlər planının icrası barədə hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi):**

“Korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2022-ci il üzrə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Tədbirlər planı” Dövlət Miqrasiya Xidmətinin rəisi tərəfindən 28.01.2022-ci il tarixdə təsdiq edilmişdir.

Həmin Tədbirlər planının icrası barədə hesabat Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.

**2-ci bəndin icrasına dair (Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi):**

Azərbaycan Respublikası ərazisində yaşayan miqrantların Xidmətin fəaliyyətlərinə daha aktiv cəlb edilməsi, onların insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və şəffaflığın təmin olunması, habelə miqrasiya sahəsində qəbul edilmiş qərarların əcnəbilərin gündəlik həyatına təsirinin qiymətləndirilməsi məqsədilə 8 nəfər üzvdən ibarət Dövlət Miqrasiya Xidməti yanında Miqrant Şurası yaradılmışdır. Miqrant Şurasının 15 mart 2022-ci il və 4 noyabr 2022-ci il tarixlərdə iclasları keçirilmiş, sonuncu iclas zamanı Miqrant Şurasının reqlamenti müzakirəyə çıxarılaraq qəbul olunmuş və Şura üzvlərinin səsverməsi yolu ilə sədr seçilmişdir. Miqrant Şurası vasitəsilə Azərbaycan Respublikasının ərazisində yaşayan miqrantların cəmiyyətimizə tam sosial inteqrasiyasını təmin etmək üçün mövcud çətinliklərin və maneələrin effektiv müəyyənləşdirilməsi və operativ şəkildə aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi planlaşdırılır.

“İnformasiya Təşəbüsslərinə Dəstək” İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra olunan “İctimai iştirakçılıq ilə bağlı şəffaflıq, hesabatlılıq və informasiya açıqlığının monitorinqi” layihəsi çərçivəsində fikir mübadiləsi və birgə müzakirə aparılması məqsədilə 27.10.2022-ci il tarixdə Xidmətdə müvafiq görüşün təşkil olunması təmin edilmiş, həmçinin qeyd olunan layihə çərçivəsində “İctimai iştirakçılıq: şəffaflıq, hesabatlılıq və informasiya açıqlığı” mövzusunda 18.11.2022-ci il tarixdə Bakı şəhərində keçirilən konfransda Xidmətin səlahiyyətli nümayəndəsinin iştirakı təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planının 5.1-ci bəndinin icrası məqsədilə korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən 14 dekabr 2022-ci il tarixdə Bakı şəhərində təşkil olunmuş tədbirdə Xidmət rəisi iştirak etmişdir.

Eyni zamanda, cari ilin 14 iyun tarixdə Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın

sədri tərəfindən Dövlət Miqrasiya Xidmətinin 50 nəfərdən çox əməkdaşı üçün “Miqrasiya proseslərinin idarə olunmasında vətəndaş cəmiyyəti institutlarının rolu” və “Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları” mövzularında təlimlər keçirilmişdir. Təlim barədə məlumat Xidmətin rəsmi internet saytında yerləşdirilmişdir.

**3-cü bəndin icrasına dair (Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatın hazırlanması və bu barədə məlumatın açıqlanması):**

Hər il olduğu kimi, 2022-ci il ərzində də miqrasiya orqanları əməkdaşları tərəfindən etik davranış qaydalarına əməl olunması, onların fəaliyyətində şəffaflığın və səmərəliliyin, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması əsas götürülmüşdür.

Eyni zamanda, Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabat Xidmətin rəsmi internet saytında yerləşdirilmişdir.

**4-cü bəndin icrasına dair (Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi ilə əlaqədar ötən dövrdə layihələri təqdim edilmiş hüquqi aktlar təsdiq edildikdən sonra Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin fəaliyyətinin həmin hüquqi aktlarda nəzərdə tutulan tələblərə uğunlaşdırılmasının təşkili):**

Dövlət-vətəndaş əlaqələrinin müasir texnologiyalar vasitəsilə təkmilləşdirilməsi, dövlət xidmətlərinin elektronlaşdırılması, dövlət qurumlarındakı açıq məlumatların əldə edilməsi günümüzün reallığı olduğunu nəzərə alaraq, Dövlət Miqrasiya Xidməti tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi məqsədilə mütəmadi tədbirlər görülür.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən 20 elektron xidmət istifadədədir. Cari il ərzində bütün elektron xidmətlər yenilənmiş, “Başqa ölkədə yaşayış yeri seçmiş Azərbaycan Respublikası vətəndaşının yaşayış yeri üzrə qeydiyyatdan çıxarılması” və “Elektron arayışlar” adlı yeni elektron xidmətlər istifadəyə verilmişdir.

**5-ci bəndin icrasına dair (Dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi normativ hüquqi aktlarda təsbit edilməsi ilə əlaqədar ötən dövrdə layihələri təqdim edilmiş hüquqi aktlar təsdiq edildikdən sonra, bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması):**

2021-ci il ərzində Xidmətin rəsmi internet səhifəsində kvota sərfiyyatı ilə bağlı interaktiv hesabat, “Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməsi”, “Əcnəbi işçi qüvvəsinə tələbat haqqında proqnoz-məlumatın verilməsi”, eyni zamanda icraatla bağlı funksional imkanlar tətbiq edilərək istifadəyə verilmişdir.

Bununla yanaşı, İAMAS-dan bir neçə qurumlar tərəfindən şəxs barədə məlumatın (şəxsiyyət vəsiqəsi, pasport, AVİS, VVADQ, viza və digərləri) əldə edilməsi təmin edilmişdir.

Qanunvericilikdə dəyişikliklər edildikdən sonra bu bəndin icrası ilə bağlı müvafiq işlərin

davam etdirilməsi nəzərdə tutulmuşdur.

**6-cı bəndin icrasına dair (Elektron Hökumət infrastrukturunun təkmilləşdirilməsi və Elektron Hökumət İnformasiya Sisteminə qoşulan informasiya sistemləri və ehtiyatlarının sayının artırılması):**

Hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşama icazələrinin, o cümlədən iş icazələrinin alınması (müddətinin uzadılması) ilə bağlı müraciətlərinin icrası zamanı tələb olunan və Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil və Daxili İşlər nazirliklərinin müvafiq informasiya sistemlərində mövcud olan bəzi məlumatların EHİS ("Asan Bridge") üzərindən əldə edilməsi təmin edilmişdir.

Elektron Hökumət İnformasiya Sisteminə qoşulan digər informasiya sistemləri və ehtiyatları ilə inteqrasiya işləri davam etdirilməkdədir.

**7-ci bəndin icrasına dair (Dövlət Miqrasiya Xidmətinin informasiya ehtiyatlarında şəxsin ona aid olan məlumatları dəqiqləşdirməsi imkanını təmin edən elektron xidmətlərinin təkmilləşdirilməsi):**

Ötən il ərzində Dövlət Miqrasiya Xidmətinin rəsmi veb səhifəsində "Dövlət rüsumu və cərimələrin ödənişi üzrə axtar", "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyat məlumatlarının yoxlanılması", "Müraciətlərin izlənməsi", "Ölkəyə gəliş və ölkədən gedişə məhdudiyyəti yoxla" funksionallığından istifadə edərək vətəndaşlar tərəfindən onlara aid olan məlumatları dəqiqləşdirmək imkanı təmin edilmişdir.

Bununla yanaşı, Xidmətin rəsmi internet saytının "Məktub yazmaq" bölməsindən gündəlik olaraq vətəndaş müraciətlərinin, habelə Xidmətin rəsmi elektron poçtuna (info@migration.gov.az) dövlət orqanları, özəl təşkilatlar və digər qurumlardan daxil olmuş sorğuların icrası təmin edilmişdir. Həmçinin, "myGov" və "E-Gov" portallarından daxil olmuş müraciətlərin cavablandırılması təmin edilmişdir.

Cari il ərzinə Dövlət Miqrasiya Xidmətinin informasiya ehtiyatlarında şəxsin ona aid olan məlumatları dəqiqləşdirməsi imkanını təmin edən elektron xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı müvafiq işlər aparılmışdır.

**8-ci bəndin icrasına dair (Dövlət Miqrasiya Xidmətində kollegial qərarların qəbulu prosedurlarında, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının iştirakının və təmsilçiliyinin genişləndirilməsi):**

2022-ci il ərzində Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın 3 iclası keçirilmişdir. İclaslarda 2021-ci ildə miqrasiya sahəsində əldə edilmiş nəticələr və bu sahədə cari vəziyyət ətrafında fikir mübadiləsi edilmiş, həmçinin 2022-ci il ərzində Xidmət ilə İctimai Şura arasında əməkdaşlığın əsas perspektivləri və tərəflərin gözləntiləri barədə müzakirələr aparılmışdır.

Ölkə ərazisində vətəndaşsızlıq hallarının aradan qaldırılması və qarşısının alınması məqsədilə yaradılmış "Vətəndaşsızlıq məsələləri ilə əlaqədar işçi qrupu"nun 25 aprel 2022-ci il tarixdə keçirilmiş iclasında İctimai Şuranın sədri də iştirak etmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində Azərbaycanda səfərdə olan müxtəlif ölkələri təmsil edən gənclər təşkilatlarının nümayəndələrinin iştirakı ilə 28 sentyabr 2022-ci il tarixdə Xidmətin inzibati binasında "Miqrantların və qaçqınların inteqrasiya alətləri, metodları və təcrübələr mübadiləsi" mövzusunda keçirilən görüşdə həmçinin Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri iştirak etmişdir.

Bununla yanaşı, readmissiya edilmiş ölkə vətəndaşları cəmiyyətə reinteqrasiyası (geri qəbul edilən Azərbaycan Respublikası vətəndaşlarının yerli şəraitə yenidən uyğunlaşdırılması) işinin səmərəli təşkili məqsədi ilə yaradılmış Reinteqrasiya üzrə İşçi Qrupunun 17.09.2022-ci il

tarixdə keçirilmiş 11-ci iclasında Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri də iştirak etmişdir.

“Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyi tərəfindən icra olunan “Azərbaycanda yaşayan əcnəbilərin cəmiyyətə səmərəli inteqrasiyası üçün səylərin səfərbər edilməsi” layihəsi çərçivəsində Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın təşkilatçılığı ilə Miqrasiya üzrə Regional Təlim Mərkəzində 11 noyabr 2022-ci il tarixdə təhsil müəssisələrinin əcnəbi tələbələrlə işləyən məsul şəxsləri üçün, 15 noyabr 2022-ci il tarixdə isə turizm sektorunun nümayəndələri üçün “Miqrasiya qanunvericiliyi sahəsində yeniliklər və elektron resurslardan səmərəli istifadə” mövzusunda seminarlar keçirilmişdir.

“İşgəncələr Əleyhinə Araşdırmalar Mərkəzi”ndən Dövlət Miqrasiya Xidmətinin Qanunsuz miqrantların saxlanılması mərkəzinə baş çəkilməsi ilə bağlı ünvanlanmış müraciətə Xidmət tərəfindən müsbət baxılmış və Mərkəzin nümayəndələri 06 may 2022-ci il tarixdə Bakı şəhər Qanunsuz miqrantların saxlanılması mərkəzində olmuş və yaradılmış şəraitdən razı qalmışlar.

4 oktyabr 2022-ci il tarixdə Dövlət Miqrasiya Xidmətinin rəisi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanovun rəhbəlik etdiyi nümayəndə heyətini qəbul etmiş və keçirilən görüş zamanı Xidmətlə sözügedən təşkilat arasında gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

**9-cu bəndin icrasına dair (Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura ilə səmərəli əməkdaşlığın davam etdirilməsi):**

Hesabat dövründə Xidmət ilə İctimai Şura arasında səmərəli əməkdaşlıq davam etdirilmiş və Şuranı təmsil edən vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə Xidmət tərəfindən zəruri dəstək verilmişdir. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının layihələrinin qrant maliyyələşməsi ilə bağlı elan olunmuş qrant müsabiqənin qalibi olmuş vətəndaş cəmiyyəti institutlarına, o cümlədən İctimai Şuranın üzvü olan qeyri-hökumət təşkilatlarına müvafiq dəstək göstərilmişdir.

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvü olan “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirilən “Azərbaycanda yaşayan əcnəbilərin cəmiyyətə səmərəli inteqrasiyası üçün səylərin səfərbər edilməsi” layihəsi çərçivəsində hazırlanmış 3 növdə bukletlərin (“Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanda əmək fəaliyyətinə dair”, “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olmasına dair” və “Əcnəbilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası haqqında faydalı məlumata dair”) hədəf qruplarına paylanması ilə bağlı müvafiq işlər həyata keçirilmişdir. Eyni zamanda, sözügedən İctimai Birlik tərəfindən “Azərbaycanda yaşayan əcnəbilərin cəmiyyətə inteqrasiyasına dəstəyin göstərilməsi” layihəsi çərçivəsində ölkə ərazisində yaşayan miqrantların inteqrasiyasını sürətləndirəcək beş mövzuda faydalı məlumatı özündə əks etdirən maarifləndirici bukletin (2500 ədəd) və metodik tövsiyənin (350 ədəd) çap edilərək hədəf qruplarına çatdırılması təmin olunmuşdur. Həmçinin, “Psixososial Reabilitasiya və İnkişaf” İctimai Birliyi tərəfindən 30 nəfər miqrant üçün psixoloji məsləhətlər və seminarlar daxil olmaqla, psixoloji terapiya tədbirləri keçirilmişdir.

Cari ilin 14 noyabr tarixində Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvü olan “Miqrasiya Sahəsinin İnkişafı” İctimai Birliyi tərəfindən Azərbaycan Tibb Universitetində “Narkomaniya və zərərli vərdişlərə qarşı mübarizəyə dair maarifləndirmə tədbirləri” mövzusunda tədbir təşkil edilmişdir.

Eyni zamanda, İctimai Şuranın və “İnjuria” hüquq jurnalının təşkilatçılığı əsasında Ukrayna vətəndaşlarından daxil olan müraciətlərin cavablandırılması və bundan irəli gələn məsələlərin birgə müzakirəsi məqsədilə Ukrayna vətəndaşlarının iştirakı ilə 28 aprel 2022-ci il tarixində Bakı şəhərində görüş keçirilmişdir.

Dövlət Miqrasiya Xidmətinin yaradılmasının 15-ci ildönümü ərəfəsində təşkil olunan və miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların, dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının, özəl sektorun, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin təmsilçilərinin iştirakı ilə "İnklüziv, Mütərəqqi və Təkmilləşdirilmiş Miqrasiya İdarəçiliyi üçün 15 illik tərəfdaşlıq" mövzusunda 16 mart tarixdə Bakı şəhərində keçirilmiş beynəlxalq tədbirdə İctimai Şuranın üzvləri də yaxından iştirak etmişlər.

23-24 may tarixlərdə İctimai Şura üzvlərinin Gəncə şəhərinə işgüzar səfərinin həyata keçirilməsinə təşkilati dəstək verilmişdir. Səfər çərçivəsində İctimai Şura üzvləri Gəncə regional miqrasiya idarəsinin fəaliyyəti ilə tanış olmuşlar. İctimai Şura üzvlərinə həmin idarənin əhatə etdiyi rayonlarda əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi və onların ölkə ərazisində qanuniləşdirilməsi istiqamətində görülmüş işlər, təşkil edilmiş səyyar xidmətlər, keçirilmiş maarifləndirmə və digər tədbirlər barədə məlumat verilmişdir. Səfər çərçivəsində yeni istifadəyə verilmiş 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzində də İctimai Şura üzvlərinə ümumi işin təşkili, həmçinin göstərilən miqrasiya xidmətləri ilə bağlı məlumat verilmişdir.

Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarının, Elm və Təhsil Nazirliyinin və ölkəmizdə fəaliyyət göstərən 44 ali təhsil müəssisəsinin nümayəndələrinin iştirakı ilə 13.09.2022-ci il tarixdə Xidmətin inzibati binasında keçirilən əcnəbi tələbələrin miqrasiya məsələlərinə həsr olunmuş görüşdə Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvü də ştirak etmişdir.

Hesabat dövründə İctimai Şura tərəfindən keçirilmiş 14 tədbirin (İctimai Şuraya daxil olan işçi qruplarının iclaslarının, həmçinin işçi qruplar tərəfindən təşkil edilən "Turizm miqrasiya mobilliyinin növü kimi" adlı seminar, "Əcnəbilərin yerli cəmiyyətə inteqrasiyası" mövzusunda ictimai müzakirə və s.) təşkil olunmasında köməklik göstərilmiş və qeyd edilən tədbirlərin əksəriyyətində Xidmətin əməkdaşlarının iştirakı təmin olunmuşdur.

Bununla yanaşı, 3 dekabr 2022-ci il tarixdə Miqrasiya üzrə Regional Təlim Mərkəzində Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri tərəfindən "Miqrasiya Könüllüləri" İctimai Birliyinin fəalları üçün miqrasiya mövzusunda mühazirə keçirilmişdir.

**10-cu bəndin icrasına dair (Açıq Hökumətin Təşviqinə dair Hökumət–Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində mütəmadi müzakirələrin keçirilməsi və Platformanın fəaliyyətinin dəstəklənməsi):**

Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının üzvü olan bir sıra qeyri-hökumət təşkilatları Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura ilə yaxından əməkdaşlıq etməklə İctimai Şurada fəaliyyət göstərən İşçi Qruplarında təmsil olunurlar. Belə ki, həmin QHT-lərdən "Konstitusiya" Araşdırmalar Fondu və "Güzəran" Sosial Araşdırmalar Mərkəzi İctimai Şuranın Qanunvericiliyin təkmilləşdirilməsi üzrə İşçi Qrupunda, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi İctimai Şuranın Əcnəbilərin inteqrasiyası üzrə İşçi Qrupunda, Beynəlxalq Avrasiya Mətbuat Fondu isə İctimai Şuranın Sığınacaq axtaran şəxslərin işləri üzrə İşçi Qrupunda təmsil olunmaqla həmin işçi qruplarının fəaliyyətinin təşkilində və mütəmadi olaraq keçirilən iclaslarında yaxından iştirak edirlər.

Qeyd olunanlardan əlavə, sözügedən Platformanın üzvü olan qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər də görülməkdədir. Belə ki, Xidmətin yaxından dəstəyi ilə 26 avqust 2022-ci il tarixdə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və "Azərbaycan Uşaqları" İctimai Birliyinin rəhbərliyi tərəfindən Xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində monitorinq aparılması istiqamətində zəruri təşkilati tədbirlər görülmüşdür.

Həmçinin, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.2.10-cu yarımbəndinin (Respublika ərazisində turizmin inkişafı və genişlənməsi ilə əlaqədar müəyyən şəxslərin insan alverinin qurbanı olmaq riskinin qarşısının alınması və belə şəxslərin mənafelərinin qorunması məqsədilə qabaqlayıcı tədbirlər hazırlanması) icrasına dəstək və bu

sahədə tərəfdaşlığın gücləndirilməsi məqsədilə 28 oktyabr 2022-ci il tarixdə Bakı şəhərində "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi tərəfindən təşkil olunmuş dəyirmi masada Xidmət əməkdaşının iştirakı təmin edilmişdir.

29 noyabr 2022-ci il tarixdə Xidmətin inzibati binasında miqrasiya sahəsində fəaliyyət göstərən, o cümlədən Açıq Hökumətin Təşviqinə dair Hökumət–Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının üzvü olan bir sıra qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, hüquq müdafiəçilərinin və hüquqşünasların iştirakı ilə "Azərbaycanda yaşayan əcnəbilərin cəmiyyətə səmərəli inteqrasiyası üçün səylərin səfərbər edilməsi" layihəsinin yekun tədbiri keçirilmişdir.

Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın fəaliyyətinin gücləndirilməsi istiqamətində təşkil edilmiş tədbirlərlə bağlı məlumatlar Xidmətin rəsmi internet səhifəsi, həmçinin rəsmi "Facebook", "İnstagram" və "Twitter" səhifələrində paylaşılmışdır.